

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 67 (23.229)

*12 aprel 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 36-cı Sessiyasında Azərbaycan nümayəndə heyəti iştirak edib

1-4 aprel tarixlərdə Strasburqda Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 36-cı Sessiyası keçirilmişdir. Avropa Şurasına daxil olan 47 üzv dövlətin 324 təmsilçisinin qatıldığı 36-cı sessiyası bu dəfə "Merlər: demokratiyanın mühafizəçiləri" devizi altında keçirilmişdir. Sessiyada İspaniyanın Ərazi məsələləri üzrə dövlət katibi İqnasio Sançes Amorun iştirakı ilə müzakirələr təşkil olunmuşdur. Sessiya Finlandiyanın Avropa Şurasında sədrliyi dövründə keçirildiyindən müzakirələrdə həmin ölkənin nəqliyyat və kommunikasiya nazirinin iştirakı ilə bağlı dinləmələr təşkil olunmuş, plenar iclasların gedişində Avropa Şurasının Baş katibi Türbyörn Yaqland və AŞPA-nın sədri Lilyan Mori Paskye də müzakirələrə qatılaraq konqres üzvlərinin suallarını cavablandırmışlar.

Konqresin 36-cı Sessiyasının gündəliyində, həmçinin "Avropa Şurasının gələcəyi ilə bağlı: Konqresin rolu və qatqısı (Helsinki prosesi)", "Yerli və regional səviyyədə açıq hökumət, gənc əhalinin sosial hüquqları: yerli və regional hakimiyyətlərin rolu", "Yerli və regional hakimiyyətlərin öz strukturlarının maliyyələşməsində səlahiyyətləri haqqında" və bir sıra digər məsələlər müzakirə olunaraq müvafiq tövsiyə və qətnamələr qəbul olunmuşdur. Ənənəvi olaraq bu sessiyada da bir sıra ölkələrdə keçirilən seçkilərin nəticələri, həmçinin ayrı-ayrı üzv dövlətlərdə yerli və regional demokratiyanın vəziyyəti müzakirə edilmişdir.

Konqresin 36-cı Sessiyasının işində iştirak edən Azərbaycan nümayəndə heyəti komitələrdə, palataların iclaslarında və plenar sessiyadakı müzakirələrdə fəal iştirak etmişdir. Plenar sessiyada "Gənc əhalinin sosial hüquqları: yerli və regional hakimiyyətlərin rolu" adlı sənədə dair müzakirələrdə nümayəndə heyətinin üzvü, Kəngərli rayonu Qıvraq Bələdiyyəsinin üzvü Rauf Əliyev çıxış edərək qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qıvraq Bələdiyyəsini təmsil etməklə yanaşı, müəllim kimi təhsil sektoru ilə, bilavasitə gəncliklə sıx təmasda olan insan kimi Naxçıvandakı təcrübədən bəhs etmək istəyir. Rauf Əliyev bildirmişdir ki, muxtar respublika əhalisinin üçdə ikisi gənclərdir və bu da həyata keçirilən siyasətdə gənclik faktorunu daim nəzərə alınmasını aktual edir. Ümumilikdə, muxtar respublika, eləcə də yerli büdcədə sosialyönümlü xərclər üstünlük təşkil edir, xərclərin daxilində gəncliklə bağlı siyasətə əhəmiyyətli sərmayələr qoyulur. Gəncliyin işsizlik probleminin həlli, məşğulluğunun təmin edilməsi, keyfiyyətli və müasir təhsil resurslarına çıxış imkanlarının yaradılması, sağlam gəncliyin yetişməsi üçün ardıcıl tədbirlərin, o cümlədən dövlət həsabına sağlamlıq və idman infrastrukturunun yerlərdə əhatəliliyinin və şəbəkəsinin yaradılması diqqət mərkəzindədir. Vurğulanmışdır ki, muxtar respublikada aparılan gənclik siyasətində sosial haqların nəzərə alınması qazanılan uğurların əsas səbəbidir.

Nümayəndə heyətinin üzvü Samirə Hüseynova AŞPA prezidentinə sual ünvanlamışdır. O, AŞPA prezidentinin bir həftə öncə İrəvanda səfərdə olmasını diqqətə çatdırmış və bu zaman Ermənistan rəhbərliyinə Avropa Şurası qarşısında münaqişənin sülh yolu ilə həllinə dair öhdəliyi xatırlatmamasının səbəbini soruşmuş, eləcə də bu sahədə hər hansı bir irəliləyişin olmadığını şərh etməyi xahiş etmişdir.

**"Şərq qapısı"**

## Muxtar respublikada iqtisadiyyatın davamlı inkişafı təmin olunub

Muxtar respublikada həyata keçirilən məqsədyönlü siyasət, qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası iqtisadi və sosial sahələrin davamlı inkişafını təmin etmiş, yüksək nəticələr qazanılmışdır.

Əldə olunmuş uğurları və dinamik inkişafı xarakterizə edən mühüm göstərici kimi ümumi daxili məhsul istehsalı 2019-cu ilin yanvar-fevral aylarında 352 milyon 560 min 600 manat təşkil etmişdir ki, bu da 2009-cu ilin müvafiq dövründəki göstəricidən 3,7 dəfə çoxdur.

***Yanvar-fevral ayları üzrə ümumi daxili məhsul istehsalı, min manat***




2019-cu ilin yanvar-fevral aylarında ümumi daxili məhsulun 51,8 faizi və ya 182 milyon 610 min manatı məhsul istehsalından, 45,4 faizi və ya 160 milyon 237 min 900 manatı göstərilən xidmətlərin dəyərindən, 2,8 faizi və ya 9 milyon 712 min 700 manatı isə məhsula və idxala xalis vergilərdən yaranmışdır. 2009-cu ilin müvafiq dövründə ümumi daxili məhsulun 42,9 faizi məhsul istehsalından, 52,1 faizi göstərilən xidmətlərin dəyərindən, 5 faizi isə məhsula və idxala xalis vergilərdən yaranmışdır. 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə məhsul istehsalının artımı sənaye, kənd təsərrüfatı və tikinti sahələrində həyata keçirilən effektiv tədbirlər nəticəsində əldə edilib.

2009-cu ilin yanvar-fevral aylarında ümumi daxili məhsulun tərkibində sənayenin payı 25 faiz olduğu halda, hazırda bu göstərici 35,3 faiz təşkil edir. Sənayenin ümumi daxili məhsulun tərkibində xüsusi çəkisinin davamlı artımı və ilk yerdə təmsil olunması muxtar respublika iqtisadiyyatının çoxsahəli və sabit inkişafını xarakterizə edir.

Sənaye ilə yanaşı, ərzaq təhlükəsizliyinin təminatında mühüm sahə olan kənd təsərrüfatının inkişafı da diqqətdə saxlanılmış, məhsul istehsalının həcmi 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə artmışdır.

İnfrastruktur quruculuğu, yeni istehsal və xidmət sahələrinin yaradılması istiqamətində 2019-cu ilin ilk iki ayında əsas kapitala vəsait qoyuluşu 2009-cu ilin bəhs edilən dövründəki göstəricini 2,6 dəfə üstələyərək 73 milyon 180 min manat olmuşdur. Ümumilikdə, 2009-cu ildən 1 mart 2019-cu il tarixədək muxtar respublikada bütün sahələrin inkişafına 8 milyard 717 milyon 667 manat vəsait yönəldilmişdir ki, bunun da 7 milyard 841 milyon 919 min manatı tikinti-quraşdırma işlərinin payına düşüb.

Muxtar respublikada iqtisadiyyatın hərəkətverici qüvvəsi sayılan sahibkarlığın inkişafı məqsədilə təkcə 2019-cu ilin yanvar-fevral aylarında təsərrüfat subyektlərinə 2 milyon 483 min 600 manat dəyərində kreditlər verilmişdir.

2019-cu ilin fevral ayının sonuna muxtar respublikada 383 növdə məhsul istehsal olunmuşdur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilmişdir.

2009-cu ildən 1 yanvar 2019-cu il tarixədək muxtar respublikada 37 min 283 yeni iş yeri yaradılmışdır ki, bunun da 33 min 866-sı və ya 90,8 faizi daimi iş yerləridir. Açılmış daimi iş yerlərinin 1488-i yeni yaradılmış müəssisə və təşkilatlarda, 10 min 549-u mövcud müəssisə və təşkilatlarda, 46-sı fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, 21 min 783-ü isə fiziki şəxslərdə yaradılmışdır.

Məhsul istehsalı əhali gəlirlərinin artımını təmin etməklə yanaşı, xidmət sektorunun da inkişafına imkan yaratmışdır. Belə ki, 2019-cu ilin yanvar-fevral aylarında nəqliyyat sektorunda yük daşınması 2009-cu ilin müvafiq dövründəki göstəricidən 62,5 faiz, informasiya və rabitə xidmətləri 2,3 dəfə, pərakəndə əmtəə dövriyyəsi 3,6 dəfə, əhaliyə göstərilən ödənişli xidmətlər 2,8 dəfə artmışdır.

Müqayisə olunan dövrdə yerli istehsalın inkişafını xarakterizə edən digər bir göstərici kimi ixrac 10,2 dəfə artmış, idxal isə 32,1 faiz azalmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası və həyata keçiriləcək digər tədbirlər iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsinə, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasına yeni imkanlar yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Yaz əkinləri sürətlə aparılır

Son illər aqrar sektorda çalışan fermerlərə və torpaq mülkiyyətçilərinə göstərilən hərtərəfli dövlət qayğısının nəticəsində bu sahəyə olan maraq daha da artır. Görülən kompleks tədbirlər nəticəsində cari ilin bol məhsulunun əsasını qoymaq üçün şum qaldırılması, toxum səpini və əkilmiş sahələrin suvarılması istiqamətində həyata keçirilən tədbirlərin sürəti artır. Bərəkətli və məhsuldar torpaq sahələri olan Babək rayonunda da cari təsərrüfat ilinə uğurla başlanılıb.



Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, bu günədək bölgədə 901 hektarda şum qaldırılıb, 682,5 hektar sahədə yazlıq əkin keçirilib. Bunun 288,9 hektarını yazlıq arpa təşkil edir. Torpaq mülkiyyətçiləri 18,3 hektarda tərəvəz əkiblər ki, bunun da 6,6 hektarı sarımsaq, 5,3 hektarı soğandır. 184,5 hektarda dən yonca, 14,9 hektarda noxud, 12 hektarda kartof, 21,2 hektarda günəbaxan əkilib.

Babək rayonunda hər il bostan bitkiləri üzrə məhsuldarlıq yüksək olur. Mövsüm zamanı həmin məhsullara tələbatı daha çox bu bölgə ödəyir. Aldığımız məlumata görə, bu günədək 142,7 hektar sahədə bostan bitkiləri əkilib.

Məlumatda bildirilir ki, torpaq mülkiyyətçiləri əlverişli keçən hava şəraitindən istifadə edərək mövsümü uğurla başa çatdırmağa çalışırlar. Bütün bunlar belə deməyə əsas verir ki, rayonda yaz əkinləri optimal müddətdə başa çatdırılacaq və yüksək məhsul üçün zəmin yaradılacaqdır.

**✍ Pərviz HACILI**

*Naxçıvan Dövlət Universitetinin pedaqoji profilli ixtisaslarında təhsil alan III və IV kurs tələbələri üçün keçiriləcək pedaqoji təcrübənin başlanğıc konfransı olub.*

## Pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq son illər ölkəmizdə təhsil sahəsində tətbiq olunan yeniliklərdən danışıb, təşkil edilən pedaqoji təcrübələrin əhəmiyyətindən bəhs edib.

Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində gənclərin ixtisaslı kadr kimi formalaşması üçün hər cür şərait yaradılıb. Bunun nəticəsidir ki, ötən il məzunlardan 764-ü ixtisas seçimi zamanı Naxçıvan Dövlət Universitetini seçib. Onlardan 297-si pedaqoji profilli ixtisaslarda təhsil alır.

Vurğulanıb ki, ali məktəbləri bitirən kadrların işlə təminatı da diqqətdə saxlanılır. 2018-ci ildən pedaqoji kadrların müsabiqə ilə işə qəbulu isə gənc kadrların işlə təmin olunmasına, eləcə də ümumtəhsil müəssisələrinin bilikli müəllimlərlə təminatına geniş imkanlar açıb. Bu tədris ili ərzində 119 gənc kadr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqədə yüksək nəticə göstərərək muxtar respublikanın ümumtəhsil məktəblərində ixtisasları üzrə müəllim kimi işlə təmin olunub. Onlardan 45-i Naxçıvan Dövlət Universitetinin məzunudur. Bununla yanaşı, vakant vəzifələrə işə qəbul üçün keçirilən imtahanların nəticələrinə uyğun olaraq universitetin 16 məzunu ümumtəhsil məktəblərində müvafiq vəzifələrə təyin olunub.

Təhsil naziri bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamına əsasən "İdeyadan başlanğıca" devizi altında hamiliyə verilən təhsil müəssisələri həmin təşkilatlarla birgə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələr həyata keçirəcəkdir. Artıq nazirlikdə sərəncamın icrası ilə bağlı təşkilati işlər görülür, layihələrin dəyərləndirilməsi üçün ekspert qrupu yaradılıb.

Təhsil naziri qeyd edib ki, 2019-cu il 15 aprel-31may tarixlərdə universitetin 456 tələbəsinin Heydər Əliyev adına tam orta məktəbdə, Naxçıvan Qızlar Liseyində və 13 şəhər, Babək rayonun Kərimbəyli, Şıxmahmud kənd tam orta məktəblərində təcrübə keçməsi üçün lazımi şərait yaradılıb. Təcrübəçi tələbələrə müasir təhsil sistemində pedaqoji yeniliklər, yeni dərsliklər, dərs vəsaitləri və elektron tədris vasitələrindən səmərəli istifadə yolları təcrübi şəkildə öyrədiləcək.

Rəhman Məmmədov çıxışının sonunda təcrübəçi tələbələrə uğurlar arzulayıb.

Konfransda universitetin Tədris şöbəsinin müdiri Şahin Əliyev "Pedaqoji təcrübənin təşkilinə aid müasir tələblər və qarşıda duran vəzifələr", Pedaqogika və psixologiya kafedrasının müdiri Sevinc Orucova isə "Təcrübə dövründə pedaqogika və psixologiya üzrə görüləcək işlər" mövzularında çıxış ediblər. Çıxışlarda pedaqoji təcrübənin əhəmiyyəti və tədris planında yeri, təşkili ilə bağlı görülmüş işlər, təcrübə müddətində pedaqoq, psixoloq və təcrübəçi tələbələrin qarşısında duran vəzifələr barədə məlumat verilib.

Sonda Naxçıvan Dövlət Universitetində pedaqoji profilli ixtisaslar üzrə kadr hazırlığını yaxşılaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən universitetə 200-ə yaxın dərslik və metodik vəsaitlər hədiyyə edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

Oxunması zəruri olan kitablar

# “Pedaqoji fikir tarixindən” kitabı təhsil ictimaiyyəti üçün dəyərli mənbədir

*Muxtar respublikamızda təhsil dövlət qayğısı ilə əhatə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin infrastrukturu yenilənmiş, şagirdlərin təhsil alması üçün zəruri şərait yaradılmışdır. Bununla yanaşı, təhsil müəssisələrinin kitabxana fondları zənginləşdirilmiş, elektron kataloq yaradılmış, kitabxanalara 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat verilmişdir.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə tariximiz, mədəniyyətimiz və milli kimliyimiz haqqında dolğun məlumat verən, gənc nəslin həyat yolunun müəyyənləşdirilməsinə və dünyagörüşünün artırılmasına xidmət edən “Oxunması zəruri olan kitabların Siyahısı” təsdiq olunmuşdur. Ötən dövrdə həmin kitabların nəşr olunaraq bütün ümumtəhsil məktəblərinin kitabxanalarına verilməsi, oxunması zəruri olan kitablardan ibarət guşələrin yaradılması şagirdlərin mütaliə mədəniyyətinin formalaşmasında mühüm mərhələ kimi dəyərləndirilməlidir. Sərəncamdan ötən dövrdə gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın formalaşdırılmasına xidmət göstərən yaradıcılıq nümunəsi olması nəzərə alınaraq Xalq yazıçısı Elçin Əfəndiyevin “Baş” romanı, publisist-politoloq Reyhan Mirzəzadənin “A.S.Qriboyedov: şair-diplomat” əsəri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən hazırlanmış “Pedaqoji fikir tarixindən” kitabı da oxunması zəruri olan kitabların siyahısına əlavə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq yeni nəşr olunmuş “Pedaqoji fikir tarixindən” kitabı muxtar respublikanın bütün ümumtəhsil məktəblərinin kitabxanalarına və pedaqoji heyətinə hədiyyə edilmişdir.

Azərbaycan pedaqoji fikri zəngin və çoxşaxəli inkişaf yolu keçmişdir. Tarixin müxtəlif dövrlərində yaşayıb fəaliyyət göstərmiş böyük mütəfəkkirlər, maarifçilər, müəllimlər, şair və yazıçılar pedaqoji fikir tariximizi öz dəyərli əsərləri ilə daha da zənginləşdirmişlər. Onların əsərləri, təlim-tərbiyə və təhsillə bağlı fikirləri bu gün də aktuallığını qoruyub saxlayır, tədrisin təşkilində əsas istiqamət kimi götürülür. “Pedaqoji fikir tarixindən” kitabında da Azərbaycan və dünya pedaqoji fikrinin ən zəruri və dəyərli nümunələri seçilərək toplu halında oxuculara çatdırılmışdır.

Kitab həm gənclər, həm də onların təlim-tərbiyəsi ilə məşğul olan müəllimlər üçün çox dəyərli vəsaitdir. Kitabda ayrı-ayrı görkəmli maarifpərvər şəxsiyyətlərin, elm xadimlərinin, pedaqoqların pedaqoji görüşləri, təhsil məsələləri haqqında dəyərli fikirləri öz əksini tapıb. Kitab müəllimlərin pedaqoji peşəyə hazırlanmalarında, ümumi pedaqoji görüşlərinin daha da inkişaf etdirilməsində, tarixən inkişaf etmiş Azərbaycan məktəb və pedaqoji irsinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Eyni zamanda görkəmli şəxsiyyətlərin elm və təhsillə bağlı dəyərli fikirləri müəllimlərin müxtəlif tarixi dövrlərdə təhsilin və məktəbin problemləri ilə tanış olmasına imkan verir.

Bu günün nailiyyətləri keçmişdən qidalanır, ondan qüvvət alır. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin müdrikcəsinə deyilmiş fikri bunu təsdiq edir: “Biz tariximizi ona görə öyrənirik ki, gələcəkdə səhvlər etməyək”. Bu mənada, qeyd etmək yerinə düşər ki, məktəbin və pedaqoji fikrin keçmişini öyrənmək daha mühüm bir missiyaya – onun gələcək perspektivlərini müəyyənləşdirməyə hesablanıb. Bu gün təhsil müəssisələrində təlim-tərbiyə prosesinin təşkilində əsas vasitə kimi götürülməsi bu cəhətdən “Pedaqoji fikir tarixindən” kitabının əhəmiyyətini və dəyərini artıran digər bir amildir.

Kitab “ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktub”la başlayır. Bu məktub həcminə görə qısa olmasına baxmayaraq, çox mühüm məqamları özündə birləşdirən və düzgün seçilmiş bir əsərdir. Həmin məktub sanki Avraam Linkolnun deyil, bütün valideynlər adından müəllimlərə bir müraciətdir. Məktubdakı cümlələrin hər biri bu günün müəlliminə sanki yol göstərir, onun üzərinə müəyyən mənəvi vəzifə qoyur.

Rus pedaqoji fikir tarixinin görkəmli nümayəndələri Uşinskinin, Çernyayevskinin, Suxomlinskinin ömür yolu, onların təlim-tərbiyəyə, müəllimə dair dəyərli fikirləri müasir təhsil sistemində istinad olunan qiymətli mənbələrdir. Publisist-politoloq Reyhan Mirzəzadənin “Uşinskinin, Çernyayevskinin, Suxomlinskinin əziz xatirəsinə” elmi-publisistik məqaləsində qeyd olunduğu kimi, Uşinski müəllimə yüksək qiymət verərək deyirdi: “Müəllimi heç bir kitab və dərsliklə, təlimin heç bir ən yeni vasitələri ilə əvəz etmək olmaz, çünki biliklə yanaşı, o, uşaqlara öz ruhunun, ürəyinin bir parçasını verir, onların mənəvi inkişafını yönləndirir”. Müəllimin fəaliyyəti barədə düşünərkən Uşinski həm də bu nəticəyə gəlirdi ki, “Heç də hər adam müəllim ola bilməz. Bunun üçün müəllim olmaq istəyi yetərsizdir, üstəlik, müəyyən keyfiyyətlərə malik olmalısan”. “Onlara yüz il bundan əvvəl də ehtiyac olub, yüz il bundan sonra da ehtiyac olacaq. Çünki onlar əvəzsizdir, yeri görünəndir. Bu, gözəl fikirdir. “Müəllim bəşəriyyətin xilaskarıdır”. Öz xilaskarına isə bəşəriyyət hər zaman borcludur, qərinələr, əsrlər ötsə belə...”

Müəllifin “Pedaqogikada misligörünməmiş təcrübə” məqaləsi isə həm əhatə etdiyi və toxunduğu məsələlər, həm də görkəmli mütəfəkkirlərin ortaya qoyduğu təlimlər baxımından pedaqoji fikir tarixində bir yenilikdir. Mustafa Kamal Atatürkün “Millətləri yalnız və yalnız müəllimləri xilas edə bilər”, Makarenkonun “Məktəb dövlət təşkilatıdır, ailə isə məişət təşkilatı, ona görə məktəb, dövlət tərbiyəsinin müvəkkili kimi, ailə tərbiyəsinə təsir etməlidir” fikirləri cəmiyyətin inkişafının yalnız təhsillə bağlı olduğunu təsdiq etməklə, eyni zamanda müəllim peşəsinin dəyərini artırır.

Maksim Qorkinin “Mən necə öyrənirdim”, “Oxumaq lazımdır”, “Mən necə oxumuşam” əsərləri görkəmli mütəfəkkirin həyatından yola çıxılaraq pedaqoji fikir tarixində yeni bir mərhələnin əsasını təşkil edir.

“Pedaqoji fikir tarixindən” kitabında görkəmli şəxsiyyətlərimiz, maarifpərvər ziyalılarımız – Cəlil Məmmədquluzadənin, Məhəmməd Tağı Sidqinin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, Eynəli bəy Sultanovun, Məhəmməd ağa Şahtaxtlının, Məmməd Səid Ordubadinin əsərlərindən elm, təhsil, tərbiyə ilə bağlı seçmələr də yer almışdır. Təqdim olunmuş əsərlər, nəsihətlər yeniyetmələri mütaliəyə, elm öyrənməyə həvəsləndirir, kitabların əhəmiyyətini onlara izah edir, təlimin mahiyyəti, prinsipləri, yenitipli məktəblərin və müəllimlərin formalaşdırılması, müəllim-şagird münasibətləri barədə düşüncələri müfəssəl şəkildə əks etdirir, nəsihətlərin insan həyatının ən müxtəlif sahələrində onun köməyinə çatdığını, ona düzgün yol göstərdiyini izah edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***“Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur”.*** Kitabda Sidqinin elmi-pedaqoji fəaliyyətinə, Xalq müəlliminin təlim-tərbiyə ilə bağlı fikirlərinə geniş yer verilib. Heç şübhəsiz ki, Məhəmməd Tağı Sidqinin Naxçıvanda başlatdığı maarifçilik hərəkatı, açdığı yeni üsullu məktəblər xalqımızın bütöv bir ziyalı nəslini yetirib. Kitabda əsərlərinə yer verilən Azərbaycan romantik dramaturgiyasının banisi Hüseyn Cavid, tarixi roman janrının banisi Məmməd Səid Ordubadi də məhz Məhəmməd Tağı Sidqinin təsis etdiyi “Ulduz” və “Tərbiyə” məktəblərinin yetirmələridir. Maarifpərvər ziyalı kimi qızların təhsil almasını çox vacib sayan Sidqi 1896-cı ildə “Qız məktəbi”ni təsis etməklə, əslində, bugünkü tədris sistemi üçün də aktual olan bir məsələni – qızların təhsil almasını gündəmə gətirmişdir. Elə buna görədir ki, o, pedaqoji görüşlərində məktəbi “cəhalət dərdinin dərmanı”, müəllimi isə “cəhalət bağının bağbanı” kimi dəyərləndirərək deyib: “Məktəb nədir? – Məktəb bizim elm və maarifimizin vasitəsi, dünya və axirətimizin səadətinin səbəbidir. Elm və ədəb bir xəzinəyə bənzər ki, onun kilidi məktəbdir. Bizi nadanlıq zülmətindən qurtarıb mərifət nuruna yetirən məktəbdir... Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır”.

Böyük pedaqoqun “Nümuneyi-əxlaq” əsərini mütaliə edərkən bir daha aydın olur ki, Sidqi məktəbə nur, işıq mənbəyi kimi baxıb, əsl səadəti məktəbdə, xalqın təhsillənməsində axtarıb. O, “Nümuneyi-əxlaq” dərsliyində şagirdlərinə aşağıdakı kimi səslənir: “Ey mənim cəsur şagirdlərim!”, “Ey mənim xoşəxlaq şagirdlərim!”, “Ey mənim təmkinli şagirdlərim!”, “Ey mənim zirək və huşyar şagirdlərim!”, “Ey mənim doğruçu şagirdlərim!”, “Ey mənim qeyrətli şagirdlərim!” Bu yanaşmalarla Sidqi şagirdlərə cəsur, əxlaqlı, təmkinli, qeyrətli olmağı öyrədir, ən əsası isə pedaqoji ustalıqdan məharətlə istifadə edərək onların düşüncəsində əsl müəllim, ziyalı obrazı formalaşdırır.

Xurafatı öz “Maarif” işığı ilə qamçılayan, xalqı cəhalətdən qurtulub elmə, təhsilə səsləyən Cəlil Məmmədquluzadə, “Millətin fəqir və zəlalətinə əsasən səbəb onun əqil və mənəviyyatının fəqir və nöqsanıdır”, – deyən Nəriman Nərimanov, XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifin vəziyyəti ilə bağlı ürəkağrısı ilə qələm çalan, dünyəvi məktəb və müəllim çatışmazlığından gileylənən, “Dünyəvi və müasir məktəb necə olmalıdır?” sualını dolğun cavablandıran Hüseyn Cavid, “Bir millətin ki, bilikli ədibi olmadı, heç olmamağı ondan məsləhətdir” fikirləri ilə maariflənmənin əhəmiyyətini vurğulayan Eynəli bəy Sultanov, yaşadığı dövrdə müsəlmanların məktəb həyatının çətinliklərini, məhrumiyyətlərini önə çəkən maarifçi Məhəmməd ağa Şahtaxtlı, təlim-tərbiyə prosesində ana dili məsələsini qaldıran Məmməd Səid Ordubadi yaradıcılığından seçmələr kitabın pedaqoji fikir tarixinin ən bitkin və ibrətamiz nümunəsi kimi keçmişi bu günümüzə daşıyır, gələcəyimizə yön verərək cəmiyyətin tərəqqisinin elm və təhsildə olduğunu göstərir.

Maarifpərvər ziyalıların nəsihətlərini pedaqoji təfəkkür süzgəcindən keçirib müasir gəncliyin tərbiyəsində istifadə etmək və məktəb təcrübəsinə gətirmək, müəllimləri istiqamətləndirmək təhsil müəssisələrinin qarşısında duran vacib məsələlərdəndir. Çünki keçmişin mütərəqqi irsini sintez etmədən yeni pedaqoji düşüncə formalaşdırmaq mümkün deyil. Elə buna görə də “Pedaqoji fikir tarixindən” kitabı müəllimlərimizə təlim və tərbiyənin təşkilində dünya və Azərbaycan pedaqoji irsindəki qabaqcıl ideya və təcrübələrdən bəhrələnmək imkanı yaradacaqdır.

*“Pedaqoji fikir tarixindən” kitabı muxtar respublikanın təhsil ictimaiyyəti üçün ən dəyərli nəşrlərdən biri, böyük dəyərə malik mütaliə materialıdır. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla və 10 min tirajla nəşr olunan “Pedaqoji fikir tarixindən” kitabının 8 mindən çoxu Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əhatə etdiyi təhsil müəssisələrinin kitabxanalarına və hər bir müəllimə verilmişdir. Bu isə muxtar respublika rəhbərinin təhsilə göstərdiyi qayğının və müəllim əməyinə verdiyi dəyərin daha bir ifadəsidir. Buradan yola çıxaraq əmin edirik ki, “Pedaqoji fikir tarixindən” kitabı hər bir müəllimin və şagirdin stolüstü kitabına çevriləcəkdir.*

**Rəhman MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikasının təhsil naziri***

## Yeni ənənə: kitabxanalara kitabbağışlama kampaniyası



***Naxçıvan Müəllimlər İnstitutunda “Biz kitabxanamıza kitab hədiyyə edirik” devizi altında ali təhsil müəssisəsi əməkdaşlarının institutun kitabxanasına kitabbağışlama kampaniyasına start verilib. Bu kampaniya müasir dövrümüzdə kitab və mütaliənin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir.***

Kampaniya çərçivəsində ilk olaraq biologiya üzrə fəlsəfə doktoru, dosent Asif Axundov şəxsi kitabxanasından institutun kitabxanasına 200-dən artıq qiymətli elmi və tədris ədəbiyyatı, o cümlədən öz müəllifliyi ilə institutun profilinə uyğun 5 dərslik, 15-dək dərs və metodik vəsait, habelə digər görkəmli alim-pedaqoqların müəllifliyi ilə 25-dən artıq dərslik və digər elmi, tədris vəsaitləri hədiyyə edib.

Bununla bağlı keçirilən tədbirdə institutun rektoru, dosent Elbrus İsayevin, biologiya üzrə fəlsəfə doktoru, dosent Asif Axundovun, kitabxana müdiri Şəfayət Sadiqovanın, Ümumi fənlər kafedrasının baş müəllimi Lamiyə Quliyevanın və Biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Aysu Hətəmovanın çıxışları olub.

Asif Axundov institutun rektoru tərəfindən mükafatlandırılıb.

Sonda kitabxanaya təqdim edilən kitablardan hazırlanmış guşəyə baxış olub.

**Gülcamal TAHİROVA**

## “Mütaliə aylığı” çərçivəsində “Poeziya günü” keçirilib

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən elan olunan “Mütaliə aylığı” şagirdlərdə oxu vərdişlərinin yaradılmasına diqqətin artırılmasına, onlara mütaliə mədəniyyətinin, ədəbiyyatlardan müntəzəm və sistemli şəkildə istifadə etmək bacarığının aşılanmasına xidmət edir. Bu tədbirlər çərçivəsində keçirilən “Poeziya günü”ndə 2019-cu ilin “Nəsimi ili” elan olunması ilə əlaqədar Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan İmadəddin Nəsiminin həyat və yaradıcılığı haqqında Naxçıvan şəhərinin məktəblilərinə geniş məlumat verilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Heyran Əhmədova çıxış edərək bildirib ki, İmadəddin Nəsiminin həyat və yaradıcılığının şagirdlər arasında təbliği və “Poeziya günü”nün keçirilməsi muxtar respublikamızda milli mədəniyyətə və incəsənətə həssas münasibətin göstəricisi kimi təqdir olunmalıdır. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində görkəmli şairin misilsiz xidmətləri olub. Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoyan mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir.



Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov çıxış edərək “Mütaliə aylığı”nın məhiyyəti barədə danışıb.

Tədbirdə Naxçıvan şəhər 8 və 15 nömrəli tam orta məktəblərin Azərbaycan dili və ədəbiyyat müəllimləri Cəmilə Əliyevanın, Güllü Allahyarovanın çıxışları olub.

Sonra Naxçıvan şəhər tam orta məktəblərinin şagirdləri şairin qəzəlini musiqi müşayiəti ilə bədii qiraət edib, görkəmli şəxslərin İmadəddin Nəsimi haqqında dedikləri fikirləri səsləndirilib, Nəsimi haqqında film nümayiş olunub.

Qeyd edək ki, “Mütaliə aylığı” çərçivəsində Babək və Şərur rayonlarında da tədbirlər keçirilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Tofiq Bakıxanov: "Naxçıvan mənim üçün mənəvi dayaq olub"

*Azərbaycan tarixində elə nəsillər var ki, onlar xalqımıza böyük simalar – hərbçilər, siyasətçilər, elm və sənət adamları, ədəbiyyatçılar, musiqiçilər, aktyorlar, rəssamlar bəxş ediblər. Bu görkəmli nəsillər içərisində Bakıxanovlar nəslinin də özünəməxsus yeri vardır. Azərbaycan Respublikasının Xalq artisti, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli bəstəkar Tofiq Bakıxanov da Abbasqulu ağa Bakıxanov nəslinin layiqli davamçısıdır. 1930-cu ildə Xalq artisti Əhməd Bakıxanovun ailəsində dünyaya göz açmış Tofiq Bakıxanovun yaradıcılığı çoxşaxəli və məhsuldardır. Böyük sənətkar bir çox səhnə əsərlərinə musiqi yazıb, baletlər, simfonik əsərlər, simfonik muğamlar, çoxlu sayda kamera-instrumental və kamera-vokal əsərləri, mahnılar, romanslar bəstələyib, bir sözlə, musiqinin bütün janrlarında yazıb-yaradıb. Azərbaycan musiqi xəzinəsini zənginləşdirən sənətkarın əsərləri bu gün dünyanın 50-dən çox ölkəsində səslənir. 1958-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü olan Tofiq Bakıxanov musiqi sahəsindəki əməyinə görə yüksək mükafatlara layiq görülüb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev görkəmli sənətkarımız haqqında demişdir:* ***"Tofiq Bakıxanov xalqımızın tarixi keçmişində, elm və mədəniyyətində öz yeri olan böyük bir nəslin ənənələrini ləyaqətlə davam etdirərək Azərbaycan musiqi mədəniyyətinə gözəl töhfələr vermişdir".***



Sənət taleyinin və yaradıcılığının əsas hissəsi qədim diyarımızla bağlı olan, Naxçıvana növbəti dəfə səfər edən tanınmış bəstəkarla görüşüb həmsöhbət olduq:

***–Tofiq müəllim, xoş gördük sizi yenidən Naxçıvanda. Siz böyük bir nəslin layiqli davamçısısınız. Maraqlıdır, Bakıxanovlar nəslinin sizin həyatınızda rolu nədən ibarət olub?***

– Çox xoşbəxtəm ki, mənim nəsil-nəcabətim xalqımızın görkəmli ziyalıları olub. Böyük bir nəslin nümayəndəsi olmaq nə qədər xoşbəxtlikdirsə, bir o qədər də məsuliyyətlidir. Odur ki, erkən yaşlarımdan indiyə qədər daim bu nəslin adını uca tutmağa, onların yolunu layiqincə davam etdirməyə çalışmışam. Tar ifaçılığının və muğamatın sirlərinə dərindən yiyələnmiş atam Əhmədxan Bakıxanov çox istedadlı, mahir bir tarzən olub. Onun sənət aləmində xüsusi xidmətləri vardır. Hər gün evimizdə tarın sədalarını eşidərdim. Deməli, mənim də musiqiyə sevgim elə o tardan başlayıb. Təhsil illərim çox maraqlı və uğurlu keçib. Mən dəfələrlə dahi Üzeyir bəyin qarşısında çıxışlar etmişəm və o da məndən çox razı qalıb. Bu mənada, 1940-cı illər mənim yaradıcılığımın ən məhsuldar dövrü olub. Həmin xatirələr mənim üçün olduqca unudulmazdır. Sənətdə qazandığım uğurlara görə həmişə boya-başa çatdığım ailəyə, mənə yol göstərən müdrik sənətkarlara və unudulmaz müəllimlərimə minnətdaram.

***– Dəfələrlə Naxçıvanda olmusunuz. Bu dəfə Naxçıvan sizdə hansı təəssüratları yaratdı?***

– Öncə bütün naxçıvanlıları muxtar respublikanın 95 illiyi münasibətilə təbrik edirəm. Naxçıvan mənim sevimli şəhərimdir. Bu qədim diyarda dəfələrlə olmuşam və bu gün də burada olmaqdan çox məmnunam. Naxçıvan hər görüşdə gözümə daha gözəl görünür. Buranın havası, suyu, təbiəti məni yeni yaradıcılıq uğurlarına ruhlandırır. Digər tərəfdən, Naxçıvanda yaradılan qayda-qanun məni həddindən artıq sevindirir. Bu yaxınlarda Bakıda radioların birindən sürücülərin maşınla gedərkən küçələrə zibil atdıqlarını eşitdim. Məncə, onlar Naxçıvandan nümunə götürməlidirlər. Bura dünyanın bir sıra qabaqcıl ölkələri ilə belə, müqayisə edilməyəcək qədər təmiz şəhərdir. Hər gəlişdə Naxçıvanda yüksək mədəniyyətin şahidi oluram.

***–Bəs sizi Naxçıvana bağlayan əsas səbəb nədir?***

– Mənim Naxçıvana bağlılığım, ilk növbədə, yüksək səviyyəli insanlarla, dostlarımla əlaqədardır. Məni ilk dəfə bu gözəl diyarla tanış edən, yaradıcılığıma Naxçıvan mövzusunu gətirməyimdə böyük rolu olan insan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov olub. Digər tərəfdən, istər akademiklər, istərsə də şair və yazıçılar, bəstəkarlar olsun, hamısı mənə və yaradıcılığıma yüksək dəyər verirlər. Onu da deyim ki, mən mərkəzi mətbuatda tez-tez yazılarla çıxış edirəm. Yazılarımın əsas mövzusu isə doğma Naxçıvanla bağlı olur. Naxçıvanlı bəstəkar, Əməkdar incəsənət xadimi Kamal Əhmədovun 70 illik yubileyi ilə əlaqədar, Naxçıvanın incəsənət, musiqi mədəniyyətindən bəhs edən digər yazılarım qəzetdə tez-tez dərc edilir. Naxçıvanı tərənnüm və təbliğ edən yazılar yazmağa bundan sonra da davam edəcəyəm.

Mən bu gəlişimdən çox razıyam. Naxçıvan mənim üçün mənəvi dayaq olub. Hər yerdə deyirəm, 89 yaşım var və əgər Naxçıvanla bağlı xatirələrim olmasaydı, bəlkə də, heç belə uzun ömür sürə bilməzdim. Hazırda məni yaşadan Naxçıvanda yaradıcılığıma verilən dəyərdir, yazdığım əsərlərin Naxçıvanla bağlığıdır. Bu yaxınlarda Azərbaycan Dövlət Akademik Filarmoniyasında yaradıcılığımın 60 illiyi rəsmi qaydada qeyd edildi. Həmin tədbirdə ifa olunan ilk və sonuncu əsərlər məhz Naxçıvan haqqında idi. Sevinirəm, ona görə ki, həyatımın bir hissəsi məhz bu diyarla bağlı olub. Arzum budur ki, mən 90 yaşımda da yenidən Nuh yurduna – Naxçıvana qayıdım.

***– Muxtar respublikada müntəzəm olaraq yaradıcı ziyalıların, xüsusən görkəmli mədəniyyət xadimlərinin yubileyləri keçirilir. Elə sizin özünüzün 70, 75, 80 illik yubileyləriniz də Naxçıvanda yüksək səviyyədə qeyd edilib.***

– Bəli, muxtar respublika rəhbəri digər sahələrlə yanaşı, mədəniyyəti də daim diqqət mərkəzində saxlayır. Sizin dediyiniz kimi, mənim 70, 75 və 80 illik yubileylərim Naxçıvanda təntənə ilə qeyd olunub. 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə mənə "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adı verilib. Bundan başqa, 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş "Qızıl medal" mükafatçısıyam, 2017-ci ildən isə Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının fəxri üzvüyəm. Burada təkcə mənim yox, ailə üzvlərimin də yubiley tədbirləri keçirilib. Yaxşı yadımdadır, 2014-cü il iyulun 2-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında mənim ulu babam Abbasqulu ağa Bakıxanovun 220 illik yubiley tədbiri yüksək səviyyədə qeyd edildi. Bütün bunlar müstəqil ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında elmə və yaradıcı şəxslərə verilən qiymətin ifadəsidir.

***– Tofiq müəllim, yaradıcılığınızın yeni bir qolunu təşkil edən, həm də muxtariyyətimizin 95 illiyinə layiqli töhfə olan "Naxçıvan təranələri" kitabınız necə ərsəyə gəldi?***

– Mənim qəlbimdə həmişə Naxçıvana qarşı böyük sevgi olub. "Naxçıvan təranələri" də, mən deyərdim ki, məhz bu sevginin təzahüründən meydana gəlib. Naxçıvanın inkişafı buraya hər gəlib-gedəndə məni yeni yaradıcılıq uğurlarına sövq edib. Arzum olub ki, vaxtilə tanıdığım şairlərin yazdıqları, mənə təqdim etdikləri şeirləri unutmadığımı göstərim və həmin yaradıcılıq irsini yenidən naxçıvanlı sakinlərlə bölüşüm. Sevincliyəm, arzuma çatdım. Naxçıvan Dövlət Universitetində "Naxçıvan təranələri" kitabının təqdimat mərasimi keçirildi. Mənə bu şəraiti yaratdığına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm.

Adıçəkilən kitab bu il anadan olmasının 100 illiyini qeyd etməyə hazırlaşdığımız böyük ədib Hüseyn Cavidin nakam oğlu, Bakıda doğulub, Naxçıvanda dünyasını dəyişmiş bəstəkar Ərtoğrol Cavidin əziz xatirəsinə həsr olunub. Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyası və Azərbaycan Bəstəkarlar İttifaqının xəttilə "Mütərcim" nəşriyyatında işıq üzü görən məcmuənin redaktorları Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov və sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədovadır. Bu kitabda toplanmış musiqi əsərləri bilavasitə Naxçıvanda doğulub böyümüş şairlərin, onların bu qədim diyara olan sevgi, məhəbbət və rəğbətlərini özündə əks etdirən sözlərinə yazılıb. Kitabda görkəmli şair Adil Babayevin "İnsan ürəyi", "Nurlu bir ümid", "Dənizə baxan zaman", İslam Səfərlinin "Payız da gəldi", "Sevgilim", böyük ədib Cəfər Cabbarlıya həsr edilmiş "Cəfərim mənim", "Könül deyir yaşa hələ", şair-dramaturq Asim Yadigarın "Batabat dağları", akademik İsa Həbibbəylinin "Arpaçay" şeirlərinə bəstələnmiş romans və musiqilər yer alıb. Kitabda adıçəkilən insanların həyatı və yaradıcılığı haqqında da yığcam məlumat verilir.

***– Naxçıvan haqqında deyilməli o qədər ifadələr var ki…***

*Qoca Şərqin qapısında*
*Düşmənlərə gözdağıdır.*
*Ulu Heydər, Cavid, Bəhruz*
*Əcəmilər ocağıdır.*
*Müjdə dolu səhabları*
*Xoş qədəmli illərdədir.*
*İlham kimi elə bağlı*
*Etibarlı əllərdədir.*

Bu, şair Ramiq Muxtarın "Naxçıvan" şeiridir. Həmin şeirə bəstələnən mahnı da "Naxçıvan təranələri" kitabına daxil edilib. Bunlar hələ Naxçıvana həsr edilən mahnıların çox az bir hissəsidir. Naxçıvan qoca Şərqin qapısıdır, qədim Nuh yurdudur. Bu diyar minlərlə tarixi abidələr məkanı, ziyalılar məskənidir. Buranın dağları, çayları, göllərinin özü belə, bir bəstə olub dildən-dilə gəzir.

***– Maraqlı müsahibə üçün sağ olun.***

**Güntac ŞAHMƏMMƏDLİ**

*Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində görkəmli bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli professor Tofiq Bakıxanovun "Naxçıvan təranələri" adlı kitabının təqdimatı keçirilib.*

## Görkəmli bəstəkar ali və orta ixtisas təhsili müəssisələrində



Fakültənin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova tədbiri giriş sözü ilə açaraq bəstəkarın yaradıcılığının çoxşaxəli və məhsuldar olduğunu, eyni zamanda universitetdə ustad dərsləri keçdiyini də qeyd edib. Nəzərə çatdırılıb ki, bəstəkar musiqinin bütün janrlarına müraciət edib və maraqlı əsərləri ilə Azərbaycan musiqi xəzinəsini zənginləşdirib.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsinin zəngin yaradıcılığından, sənətinə göstərilən yüksək dövlət qayğısından danışıb.

Yaradıcılığının əsas səhifəsini Naxçıvanın təşkil etdiyini, hər konsertində Naxçıvana xüsusi yer verdiyini deyən Tofiq Bakıxanov kitabın məğzindən söhbət açıb. Diqqətə çatdırılıb ki, kitabda Naxçıvan şairlərinin şeirlərinə bəstələnmiş mahnı və romanslar yer alıb.

Sonra kitabda təqdim olunan mahnı və romanslar səsləndirilib.

* * *

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının üzvləri və Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələri ilə professor Tofiq Bakıxanovun görüşü və ustad dərsi keçirilib.

Naxçıvan Musiqi Kollecində keçirilən tədbiri giriş sözü ilə açan kollecin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Günay Əliyeva deyib ki, görkəmli bəstəkarımız Tofiq Bakıxanov dəfələrlə qədim diyarımızda olub. O, bir sıra fəxri adlarla bərabər "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi" adının da şərəflə daşıyır. Müxtəlif janrlarda əsərlər yazan Tofiq Bakıxanovun əsas yaradıcılıq meyarı istedad və bacarıq, zəhmət və iradə, yorulmaq bilmədən çalışmaqdır.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov çıxış edərək bildirib ki, Tofiq Bakıxanovun yaradıcılığı musiqisevərlər tərəfindən yüksək dəyərləndirilir.

Tədbirdə Tofiq Bakıxanov Naxçıvanda musiqi mədəniyyətinə göstərilən böyük qayğıdan danışıb. Qeyd edib ki, o, yaradıcılığının bir hissəsini qədim Naxçıvana həsr edib. Hər dəfə bu diyara gələndə möhtəşəm yeniliklərlə rastlaşır ki, bu da onu yeni əsərlər yaratmağa sövq edir.

Kollecdə keçilən ustad dərsində bəstəkar bildirib ki, musiqiçi olmaq istəyən hər bir insan təcrübə vərdişlərini inkişaf etdirməli, fərdi xüsusiyyətlərdən yaradıcılıqla istifadə etməlidir. Bəstəkar müəllim və tələbələrin suallarını cavablandırıb.

Tədbirin bədii hissəsində Naxçıvan Musiqi Kolleci tələbələrinin konserti olub. Konsertdə muğamlarımızla yanaşı, dünya bəstəkarlarının əsərləri də səslənib. Əvvəlcə kollecin "Buta" muğam ansamblı tərəfindən kompozisiya ifa olunub. Sonra xarici ölkə bəstəkarlarının skripka, fortepiano, qanun üçün yazdığı musiqilər səslənib. Konsert Qran-pri mükafatçısı, kollecin tələbəsi Nəcəf Hacılının nağarada ifa etdiyi kompozisiya ilə başa çatıb.

* * *

Həmin gün bəstəkar Tofiq Bakıxanov Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbində Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq musiqi incəsənət və bədii sənətkarlıq məktəblərinin müəllimləri ilə də görüşüb və ustad dərsi keçib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin baş məsləhətçisi Leyla Əlimərdanova Tofiq Bakıxanovun həyat və yaradıcılığına nəzər salıb, onun Azərbaycan bəstəkarlıq məktəbində böyük xidmətləri olduğunu qeyd edib.

Tofiq Bakıxanov çıxışında Naxçıvanda musiqinin inkişafına göstərilən böyük qayğıdan danışıb, Azərbaycan musiqisinin qədim və zəngin ənənələrindən söhbət açıb. Naxçıvan torpağının yetirmələri olan bəstəkarlar Ərtoğrol Cavid, Məmməd Nəsirbəyov, Ramiz Mirişli, Nəriman Məmmədov, Rəşid Məmmədov haqqında xatirələrini bölüşüb.

Ustad dərsdə isə bəstəkar ifaçılıq texnikasından, üslub və forma yeniliklərindən danışıb. Bildirib ki, peşəkar musiqiçi olmaq istəyən şagirdlər uşaq musiqi məktəblərində bu sənətin ilkin sirlərinə dərindən yiyələnməlidirlər. Muxtar respublikanın məktəblərində musiqi təhsili üçün hər cür imkan və şərait yaradılıb.

Naxçıvan şəhər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin müəllim və tələbələrinin ifasından sonra tanınmış bəstəkar yaradıcılıq tövsiyələri verib, sualları cavablandırıb.

**Xəbərlər şöbəsi**

## Daha bir sakin icbari tibbi sığortadan yararlanıb



***Muxtar respublikada icbari tibbi sığortadan yararlanan daha bir nəfərin üzərində pulsuz cərrahi əməliyyat aparılıb.***

İcbari tibbi sığorta olunan Sədərək kənd sakini 49 yaşlı Vidadi Rzazadə Sədərək Rayon Mərkəzi Xəstəxanasına ürək nahiyəsində yaranan ağrı ilə müraciət edib və müayinə olunub. Müayinə nəticəsində onun ürəyində ciddi problemlər aşkar edilib.

O, xəstəxana tərəfindən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə göndərilib. Mərkəzin kardioloq-angioqrafı Nail Mehbalıyev tərəfindən 2 balon və 3 ədəd dərmanlı stend vasitəsilə damarlarda yaranmış problemlər aradan qaldırılıb və ürək qan dövranı tam bərpa edilib. Birgünlük həkim müşahidəsindən sonra xəstə sağalmış halda təxliyə olunub.

Vidadi Rzazadəyə göstərilən bütün tibbi xidmətlərin xərcləri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən qarşılanıb.

Qeyd edək ki, bu ilin ilk rübündə 9 nəfər icbari tibbi sığorta ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasına, Diaqnostika-Müalicə Mərkəzinə, Doğum Mərkəzinə və Kardioloji Mərkəzə müalicəyə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Xalq təqvimi*

## Etnoqrafik yaddaşımıza məxsus “Abu-neysan” dövrü

*Xalq təqvimində aprel ayı iqlim dəyişikliyinə görə ən təzadlı ay hesab olunur. Müxtəlif illərdə fərqli olsa da, demək olar ki, bu ayda hər gün təbiətdə dəyişiklik baş verir. Kənd yerində yaşayan hər kəs yaxşı bilir ki, aprel ayında bir neçə saat yağan yaz yağışından sonra təbiətdə dərhal dəyişiklik əmələ gəlir. Bu göstərir ki, aprel ayında xalq təqvimini nəinki günlərə, hətta saatlara bölmək olar.*



Yağıntıdan söz düşmüşkən, qeyd edək ki, aprel ayında yağan yağışa “neysan” (abu-neysan) deyirlər. Bəzi tədqiqatçılar leysanla neysanı eyniləşdirirlər. Hər kəs bilir ki, leysan fasiləsiz və gur yağan yağışlara deyilir. Böyük dağıntılara səbəb olan bu yağış arzuolunmazdır. Neysan isə aprel ayında yağan, bitkilərin, əkin sahələrinin inkişafında mühüm əhəmiyyət kəsb edən yağışdır. Etnoqrafik yaddaşımıza, ata-babalarımızın dünyagörüşünə əsaslanaraq demək olar ki, aprel ayının 15-dək olan dövr xalq təqvimində “abu-neysan” adlandırılıb.

XIX əsrdə yaşamış görkəmli Azərbaycan şairi Qasım bəy Zakir “Oldu” şeirində belə yazırdı:

*Əmr olundu, abi-niysan!*
*Cansızlara bəxş etdi can.*
*Yenə təzələndi dövran,*
*Nə gözəl ruzigar oldu!*

Qeyd edək ki, xalq təqvimində “qara yaz” adlanan bölgü vardır. Bəzən tədqiqatçılar qara yazın bölgüsünü fərqli aparırlar. Üçcildlik “Azərbaycan etnoqrafiyası” kitabında yaz günlərindən aprel ayının sonlarına kimi, yəni yazdan 40 gün keçən dövr “qara yaz” adlandırılıb. Yaşlıların dediyinə görə, əvvəllər qara yaz çıxmamış sobaları yığışdırmazdılar. Topladığımız məlumatlar da göstərir ki, Naxçıvanda yazın ilk günündən aprelin 15-nə qədər olan dövr “qara yaz” adlanır. Xüsusən heyvandarlıqda qara yaz ağır dövr hesab edilir. Bəzi illərdə hələ Novruz bayramından əvvəl düzən və təpələrin güney hissəsi yaşıllaşsa da, heyvan yerdən ot götürə bilmir, yaz otuna ağzı dəydikdə quru yemi yaxşı yemir. Naxçıvanın qışı soyuq, yayı isə isti və quraq keçdiyinə görə, alçaq dağlıq hissələrdə yazın ilk iki ayını çıxmaq şərtilə bitki örtüyü zəif olur. Buna baxmayaraq, yaşlı kişilər söyləyirlər ki, payızda qoyun dərisini yerdə sürüyən zaman üzərinə çör-çöp yapışsa, bil ki, qoyun-quzu ac qalmayacaq. Yazda isə dərinin üzərinə bir yumurta yekəlikdə göy ot yığıbsa, deməli, heyvanların qidası yaxşı olacaq. Bu dövrdə otun az olmasına baxmayaraq, el arasında deyildiyi kimi, “qoyun dişini qıcayır” – yəni yem götürməyə çalışır.

Xalq təqviminə görə, martın sonu, aprelin birinci yarısı “keçiqıran” dövrü adlanır. Bu dövrdə yaşlı və arıq keçilər bir balaca hava soyuq olan kimi qırılır. Ona görə də el arasında “keçinin beli isinməsə, əmələ gəlməz”, – deyirlər. Aprel ayının 15-dən sonra havalar isinir, çöldə ot cücərməyə başlayır. Bəzən el arasında “hava soyuqdur, ot gəlmir”, – deyirlər. Qara yaza başqa yaşayış məskənlərində “oğlaqqıran”, “keçiqıran”, “davardoymaz”, “yatardurmaz”, “gedər-gəlməz” də deyirlər. Təcrübəli heyvandarlar çalışar ki, bu dövrdə heyvanların “dizi sınmasın” (çox zəifləməsin). Ümumiyyətlə, el arasında qara yaz vaxtı ağır dövr hesab edilir. Ona görə də “bayramdan sonraya qırx kötük, qırx şələ odun, qırx çuval saman saxla” ifadələri yaranıb. Babalarımız Novruzu təntənə ilə qeyd etsələr də, hələ də çətinliklərdən qurtarmadıqlarını hiss etmiş, “lənət marta, aprelin 15-nə kimi” ifadəsi də buradan meydana gəlib.

Bəzi etnoqraflar qeyd edir ki, elə ki yazın qırxı çıxdı, təzə-tər yaz otları cücərir. Yazın ilk sədaları ilə başlayan bu müddət el arasında “tərçıx”, “tarçıx” dövrü adlanır. El arasında “mal-qaranın ağzı elə ki tarçıxa çıxdı, qorxu yoxdur”, – deyirlər. “Tarçıx”, “tərçıx” sözünü yazda tər otların çıxması, qışda tövlədə tərləyən mal-qaranın tərinin çıxması kimi izah edirlər. Çöl tədqiqatlarında isə bu sözün izahına rast gəlmədik. Araşdırmalardan bu qənaətə gəlirik ki, bu söz “tarçıx” olub, “gecə otarmaq”, “qaranlıqda çıxmaq” mənasındadır. “Tarçıx” sözünün mənası haqqında belə bir ehtimal da vardır. Xalq arasında sutkanın vaxt bölgüsünə müxtəlif adlar verilib. Şər vaxtı (günbatan), xoruz banı, köpək tayadan düşən vaxt, itin qurddan seçilən vaxtı, toyuqlar tara çıxan vaxt və sair. Toyuqlar, adətən, axşamçağı gün əyiləndə tara (hündürdə uzununa düzəldilmiş tir) və ya ağacların budağına çıxırlar ki, həmin vaxt “toyuq tara çıxan vaxt” adlanır.

Yazın girməsi “kotan (cüt) dövrü” də adlanır. Novruz bayramının səhəri şum başlanır. Babalarımız həmin gün elliklə sahəyə çıxar, ilk şırımı xalqın mötəbər bildiyi, əli ruzili adam edərdi. Səpin zamanı da ilk toxumu yerə həmin adam atar, Ulu Yaradandan ruzi-bərəkət diləyərdi. Atalarımız əkin, səpin vaxtını da təbiəti müşahidə ilə təyin edərdilər. Ona görə də “Durna gəldi çıx şuma, durna getdi çıx tuma” ifadəsini işlədiblər. Şumun və səpinin vaxtında aparılması əsas şərtdir. “Bazardan qalsan, bir gün qalarsan, əkindən qalsan, bir il qalarsan” atalar sözü də elə buradan yaranıb. Suvarılan əkinlərə “armuda var”, “armud gülü” suyu verilir. Bu cür adlandırma suvarma vaxtını armudun çiçəklənməsi ilə təyin etmək ənənəsindən meydana gəlib.

Dəmyə əkinlərin vaxtında – ilk yağışlar yağana qədər aparılması da əsas şərtdir. Yoxsa yağan yağışlardan sonra yaranan palçıq əkini bir neçə gün yubadacaq, məhsuldarlıq aşağı düşəcəkdir.

Bu dövrdə çöllərdə əhalinin əsas qidasını təşkil edən göbələk, yer kartofu, şomu, cacıq və digər dağ pencərləri yetişir. Aprelin sonlarında isə dağlardan bolu, çaşır yığılır.

Yazın ilk aylarından etibarən həyətbacada da qayğılar artır. İnsanlar, əsasən, tərəvəz, bostan bitkiləri, müxtəlif növ pencərlər yetişdirməyə başlayırlar. Meyvə ağaclarında isə çiçək sovuşan kimi dərmanlama işləri aparılır.

Arıçılar üçün də bu dövr qayğı ayıdır. Arı yeşiklərinin içərisi təmizlənir, ana arının olub-olmaması müəyyən edilir. Əgər ana arı ölübsə, yenisi qoyulur və ya yeşikdəki arılar anası olan zəif arı ailəsi ilə birləşdirilir. Xəstəlik və zərərvericilərə qarşı tədbirlər görülür. Ağacların çiçək açması ilə birgə arılar üçün ən işlək dövrlərdən biri başlayır. Bu isə arıçı sahibkarların, demək olar ki, hər gün onlara baxmalarını şərtləndirir.

Bir sözlə, ta qədimdən ata-babalarımız uzun illərin müşahidə və təcrübəsinə əsaslanaraq aprel ayında görülən işləri təbiətdəki dəyişiklikləri izləməklə mərhələli şəkildə yerinə yetiriblər. Məhz bu ayda əl-qolu çırmayıb təsərrüfatdan bərk yapışmaqla bol məhsulun, ruzi-bərəkətin təməli qoyulub.

**Zaleh NOVRUZOV**

*İdman*

## Ali təhsil müəssisəsinə tatami dəsti verilib



10 dekabr 2018-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında” keçirilən müşavirədə Ali Məclis Sədrinin verdiyi tapşırıqlara uyğun olaraq muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idman yarışlarının kütləviliyinin artırılması sahəsində uğurlu fəaliyyət davam etdirilir.

Muxtar respublikada müasir idman infrastrukturunun yaradılmasının gənclərin sağlamlığının qorunmasında, onların asudə vaxtlarının səmərəli təşkilində, idmanın kütləviliyinin artmasında və istedadlı gənclərin üzə çıxarılmasında mühüm rolu vardır. Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən bu sahəyə diqqətlə yanaşılıb, ali təhsil müəssisələrində idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmanın inkişaf etdirilməsi məqsədilə “Naxçıvan” Universitetinə 1 dəst ( 100 ədəd ) tatami verilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## İdmançımız gümüş medal qazanıb



Hövsan Olimpiya-İdman Kompleksində “Qarabağ” karate klubunun təşkilatçılığı ilə III klublararası birincilik keçirilib.

Birincilikdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının idmançısı da mübarizə aparıb. Belə ki, 7 yaş qrupunda tatami üzərinə çıxan idmançımız Məryəm İbrahimova gümüş medal qazanıb. O, bu uğura 34 kiloqram çəki dərəcəsində imza atıb.

İdmançımız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

## Təlim-məşq toplanışı keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən Dağçılıq İdman Məktəbinin rəhbəri, təlimçi-məşqçi Babək İsgəndərov muxtar respublikaya dəvət olunub.

Artıq iki gündür, federasiyanın məşqçi müəllimləri və 30-dan çox gənc süni divara dırmanma üzrə təlim-məşq toplanışında iştirak edir. Bu gün isə təlim-məşqlərdən sonra “Naxçıvan Muxtar Respublikası – 95” devizi altında süni divara dırmanma üzrə muxtar respublika birinciliyi keçiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına 2019-2020-ci tədris ilində namizəd qəbulu qaydaları

***Ümumi müddəalar:***

**Təlim dili:** Azərbaycan dili
**Təhsil forması:** əyani
**Təhsil müddəti:** 3 il
**Yaş həddi:** Cari ildə tam orta ümumtəhsil müəssisəsini bitirən sentyabr ayının 15-nə kimi 19 yaşı tamam olmayan və hərbi-həkim komissiyasının rəyinə əsasən təhsil almağa yararlı sayılan oğlanlar (və qızlar) qəbul olunurlar.

Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına qəbul olunmaq istəyən namizədlər 20.04.2019-cu il tarixdən 20.05.2019-cu il tarixədək Naxçıvan Tibb Kollecinin direktoruna ərizə ilə müraciət etməlidirlər.

***Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:***

1. Şəxsən yazılmış tərcümeyi-hal
2. Doğum haqqında şəhadətnamənin surəti (dövlət notariusu tərəfindən təsdiq olunmuş)
3. Şəxsiyyət vəsiqəsinin surəti (dövlət notariusu tərəfindən təsdiq olunmuş)
4. Təhsil aldığı yerdən xasiyyətnamə
5. Tam orta təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış “Forma 63”)
6. 4 ədəd rəngli fotoşəkil (3x4 santimetr)
7. Valideynlərin və ya qəyyumluq edən şəxslərin dövlət notariusunda təsdiq olunmuş razılıq ərizələri (valideynləri vəfat etdiyi halda ölüm haqqında şəhadətnamənin surəti)
8. İstənilən səbəbdən hərbi tibb fakültəsində təhsil almaqdan imtina etməsinin tələbənin Naxçıvan Tibb Kollecindən xaric olunması ilə nəticələnməyi barədə abituriyentin götürdüyü öhdəlik
9. Tibbi göstərişlərə görə qanın Vasserman, İİÇV seroloji reaksiyasına və hepatit B, C daşıyıcılığına müayinəsinin nəticələri
10. Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi xəstəliklər üzrə qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən Naxçıvan Tibb Kollecinə sənəd qəbulu komissiyasına şəxsən təqdim olunur.

***2019/2020-ci tədris ili üçün Hərbi feldşer işi ixtisası üzrə tələbə qəbulu elan edilir***

1. Hərbi feldşer işi ixtisasına təhsil dövlət sifarişi əsasında (dövlət büdcəsinin vəsaiti hesabına) həyata keçirilir. Dövlət təhsil alanların qeyd olunan ixtisas üzrə pulsuz təhsil almaq hüququnu təmin edir. Təhsil Azərbaycan dilində, əyani formada 3 il müddətinə aparılır.

2. Hərbi feldşer işi ixtisasına cari ildə tam orta təhsilini başa vurması haqqında müvafiq dövlət nümunəli sənəd almış, hərbi-həkim komissiyasının rəyinə əsasən (namizəd Naxçıvan Tibb Kollecinin göndərişi əsasında hərbi xidmətə yararlığını təyin etmək üçün hərbi-həkim komissiyasından keçirilərək rəy alır) qeyd olunan ixtisas üçün yararlı sayılan və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə sənəd vermiş namizədlər (qızlar və oğlanlar) qəbul olmaq hüququna malikdirlər.

3. Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına qəbul 2 mərhələdə aparılır. Qəbul olunmaq istəyən namizədlər “Abituriyentin elektron ərizə”sində orta ixtisas təhsil formasını seçərək Naxçıvan Tibb Kollecinin direktoruna ərizə ilə müraciət edir və hərbi-həkim komissiyasından keçirilir. Hərbi-həkim komissiyasından müvəffəqiyyətlə keçmiş və Hərbi feldşer işi ixtisasına keçid balını toplayan namizəd həmin ixtisasa qəbul olunur.

4. Hərbi feldşer işi ixtisasına sənədlərin qəbulu 2019-cu il aprelin 20-dən mayın 20-dək Naxçıvan Tibb Kollecində aparılacaq.

***Hərbi feldşer işi ixtisasına qəbul 2 mərhələdə aparılır***

1-ci mərhələdə qəbul olmaq istəyən namizədlər hərbi-həkim komissiyasından keçməlidirlər. Hərbi-həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu vaxtı bildiriləcəkdir. Hərbi-həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər qeydə alınır. Qeydə alınmış namizədlərin adlı siyahısı Naxçıvan Tibb Kollecinə və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublika Regional Bölməsinə göndərilir.

2-ci mərhələdə qeydə alınan namizədlər Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına qəbul üçün keçiriləcək test imtahanında iştirak edərək keçid balını toplamalıdırlar.

**Qeyd:** Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına hərbi-həkim komissiyasının rəyinə əsasən yararlı sayılan və qəbul imtahanında keçid balını toplamış namizədlər qəbul olunurlar.

***Əlaqə nömrələri: 545-03-53***
***545-03-52***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 260